**“Yeni Azərbaycan”.-**2014.-13sentyabr.-№ 166.-S.15.

## Azərbaycan-Qırğızıstan əlaqələri intensiv şəkildə inkişaf edir

### İki ölkə arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın növbəti iclası keçirilib

Xəbər verildiyi kimi, sentyabrın 10-da Nazirlər Kabinetində Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın növbəti iclası keçirilib. Qırğız Respublikasının Baş nazirinin birinci müavini Tayırbek Sarpaşevin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasının Baş naziri Artur Rasizadə ilə görüşüb. Görüşdə Azərbaycan ilə Qırğızıstan arasında bütün sahələrdə əməkdaşlığın inkişafı üçün geniş imkanların olduğu bildirilib.

Daha sonra Hökumətlərarası Komissiyanın iclası keçirilib. İclasda çıxış edən Komissiyanın Azərbaycan tərəfdən həmsədri, Baş nazirin birinci müavini Yaqub Eyyubov Azərbaycan və Qırğızıstan xalqlarının əsrlər boyu həmişə sülh və dostluq şəraitində yaşadığını qeyd edib. Qırğızıstan və Azərbaycan indi müstəqil dövlətlər kimi bu dostluq və qardaşlıq münasibətlərini inkişaf etdirirlər. Y. Eyyubov deyib ki, hər iki ölkə üzv olduğu bütün beynəlxalq təşkilatlarda qarşılıqlı əməkdaşlıq edir və bir-birini dəstəkləyir. Əminliklə bildirilib ki, Hökumətlərarası Komissiyanın fəaliyyəti münasibətlərin gələcək inkişafına öz töhfəsini verəcək.

Bu gün Azərbaycanın sürətlə inkişaf etdiyini deyən Yaqub Eyyubov bildirib ki, bu uğurun təməlində xalqımızın Ümummilli lideri Heydər Əliyevin müəyyənləşdirdiyi uzaqgörən siyasət dayanır. Bu siyasəti uğurla davam etdirən Prezident İlham Əliyevin səyləri nəticəsində ölkəmiz günbəgün yenilənir, inkişaf edir.

Vurğulanıb ki, ölkəmizdə təkcə neft sənayesi deyil, qeyri-neft sektoru da sürətlə inkişaf etməkdədir. Bunu müxtəlif təşkilatların statistik göstəricilərində müşahidə etmək olar.

Azərbaycanın ən ağrılı problemi olan Dağlıq Qarabağ münaqişəsindən də danışan Y. Eyyubov bildirib ki, bu münaqişə nəticəsində torpaqlarımızın 20 faizi işğal olunub, tarixi-mədəniyyət abidələrimiz tamamilə dağıdılıb.

Qırğızıstan tərəfdən komissiyanın həmsədri, Baş nazirin birinci müavini Tayırbek Sarpaşev çıxış edərək bildirib ki, ölkəsi Azərbaycan ilə əməkdaşlığa xüsusi önəm verir. O, qarşılıqlı tərəfdaşlıq üçün müxtəlif səviyyələrdə görüşlərin keçirildiyini xatırladaraq, bu komissiyanın da əlaqələrin inkişafının sürətlənməsinə xidmət etdiyini deyib.

Səfəri zamanı gözəl və inkişaf etmiş bir Azərbaycan gördüyünü deyən qonaq ölkəmizin regionlarında aqrar sənayenin inkişafı istiqamətində görülən işləri yüksək qiymətləndirib. Tayırbek Sarpaşev ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlıq üçün geniş imkanların olduğunu vurğulayıb. Bildirilib ki, investisiya qoyuluşu sahəsində əməkdaşlığın genişləndirilməsi üçün əlverişli potensial mövcuddur. O, bu yaxınlarda açılacaq Bakı və Bişkek aviareysinin ölkələrimiz arasında əlaqələri daha da yaxşılaşdıracağını deyib. Baş nazirin birinci müavini T. Sarpaşev deyib ki, ötən iclasda qərara alınmış razılığa əsasən, Bişkekin mərkəzində Ümummilli lider Heydər Əliyev adına Mədəniyyət və İstirahət Parkının salınması üçün artıq bütün hazırlıq işləri görülüb. İclasda nəqliyyat, rabitə, turizm, humanitar sahələrdə hüquqi bazanın genişləndirilməsi istiqamətində müzakirələr aparılıb.

Bu məqamda vurğulamaq yerinə düşər ki, SSRİ dövründə ittifaq respublikaları olaraq bir dövlətdə təmsil olunan Qırğızıstan və Azərbaycan keçmiş imperiyanın süqut etməsi ilə dövlət müstəqilliyi əldə ediblər. İki ölkə arasında diplomatik əlaqələr 1993-cü ildə yaradılıb. 2002-ci ildə Qırğızıstan Respublikasının Azərbaycandakı fəxri konsulluğu yaradılıb. 2005-ci ildən isə Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə Azərbaycan-Qırğızıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupu yaradılıb. 2007-ci ildə Azərbaycan Respublikasının Qırğız Respublikasında səfiri təyin edilib.

2008-ci ildə isə Qırğız Respublikasının Azərbaycan Respublikasında səfiri təyin edilib. Rəsmi əlaqələrə gəldikdə, 22-24 avqust 1995-ci ildə Ulu öndər Heydər Əliyev Bişkekdə Manasın 1000 illiyinə həsr olunmuş tədbirlərdə və Türkdilli dövlətlərin III Sammitində iştirak edib. 1998-ci ildə Ümummilli lider Heydər Əliyevin 75 illik yubileyi münasibəti ilə Qırğızıstan Respublikası Baş nazirinin müavini K. Nanayevin başçılıq etdiyi nümayəndə heyəti Bakıda olub. 1998-ci ildə Bakıda keçirilmiş TRACECA proqramı çərçivəsində tarixi İpək Yolunun bərpası üzrə Beynəlxalq Konfransın işində Qırğız Respublikasının sabiq Prezidenti Əsgər Akayev iştirak edib və əsas sazişi imzalayıb. 1999-cu ildə Bakıda keçirilmiş Türkdilli Dövlətlərin Xüsusi xidmət orqanları rəhbərlərinin II Konfransında Qırğızıstan Respublikası da təmsil olunub. 1999-cu ildə Bakıda İslam Əməkdaşlıq Təşkilatının IX toplantısında

Qırğız Respublikası xarici işlər nazirinin birinci müavini A. Cekşenkulovun başçılıq etdiyi nümayəndə heyəti iştirak edib. 2000-ci ildə Türkdilli Dövlət Başçılarının Bakıda keçirilmiş VI Zirvə görüşündə və "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi tədbirlərində Qırğızıstan Respublikasının nümayəndə heyəti də iştirak edib.

Cənab İlham Əliyevin Azərbaycanın dövlət başçısı seçilməsinin ardından dövlətlərarası münasibətlər daha da inkişaf edib. 2006-cı ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qırğız Respublikasının Dövlət katibi Dastan Sarıqulovu qəbul edib. Görüş zamanı Azərbaycan-Qırğızıstan ikitərəfli münasibətlərinin müxtəlif sahələri ilə bağlı məsələlər müzakirə edilib. 2006-cı ildə İslam Əməkdaşlıq Təşkilatının IX Zirvə görüşü çərçivəsində Bakıda səfərdə olan Qırğız Respublikasının Baş nazirinin birinci müavini M. Kerimkulov Prezident İlham Əliyev tərəfindən qəbul edilib. Görüşdə ölkələrimiz arasında hökumətlərarası iqtisadi komissiyanın yaradılmasının vacibliyi vurğulanıb və bunun qarşılıqlı ticarət dövriyyəsinin artırılmasına təkan verəcəyi qeyd olunub. 2009-cu ildə Qırğızıstan parlamenti (Joqorku Keneş) sədrinin birinci müavini Çolpon Bayekovanın başçılığı ilə Qırğız nümayəndə heyəti Azərbaycanda səfərdə olub. Səfər çərçivəsində nümayəndə heyəti Azərbaycan Prezidenti İlham Əliyev və Milli Məclisin sədri Oqtay Əsədov tərəfindən qəbul edilib. 2009-cu ildə Bakıda İslam Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin hüquq-mühafizə orqanlarının rəhbərlərinin iştirakı ilə konfrans keçirilib. Qırğız Respublikası tərəfindən ölkənin Dövlət Gömrük Komitəsinin nümayəndəsi tədbirdə iştirak edib. 2009-cu ildə Naxçıvan şəhərində Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşündə Qırğızıstan Respublikası da təmsil olunub. Zirvə görüşünün sonunda Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının yaradılması haqqında Naxçıvan Sazişi imzalanıb. 2010-cu ildə İstanbul şəhərində keçirilmiş Türkdilli Ölkələrin Dövlət başçılarının X Zirvə Toplantısı çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının keçid dövrü Prezidenti Roza Otunbayeva arasında görüş keçirilib. 2010-cu il tarixində Qırğızıstanda keçirilmiş parlament seçkilərində Azərbaycan müşahidə missiyası iştirak edib. 2010-cu il tarixində İstanbulda keçirilmiş İƏT-nin zirvə toplantısı zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Qırğız Respublikasının Prezidenti Roza Otunbayeva arasında təkbətək görüş olub.

2012-ci ilin martında Qırğız Respublikasının Prezidenti Almazbek Atambayev ölkəmizə səfər edib. Səfər çərçivəsində iki ölkə başçıları arasında keçirilən görüşdə Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə olunub. Dövlətlərimiz arasında əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı potensialın olduğu qeyd edilib. Qırğız Respublikasının Prezidenti Almazbek Atambayevin Azərbaycana rəsmi səfərinin ölkələrimiz arasında əməkdaşlığın daha da möhkəmləndirilməsi baxımından önəmi vurğulanıb. Daha sonra geniş tərkibdə davam etdirilən görüşdə Qırğız Respublikasının Prezidentini ölkəmizdə salamlayan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu səfərin əlaqələrimizin və ikitərəfli münasibətlərimizin inkişafına verilən əhəmiyyətin çox yaxşı göstəricisi olduğunu vurğulayaraq deyib ki, münasibətlərimizin çox gözəl gələcəyi var. Ölkə başçısı bildirib ki, qarşılıqlı münasibətlərimizdə yol verilmiş vaxt itkisinin əvəzini tez bir zamanda çıxacağıq. Çünki bizim razılaşmaların konkret işlərə transformasiyası göz qabağındadır.

Qırğız Respublikasının Prezidenti Almazbek Atambayev münasibətlərimizin inkişafından çox müsbət nəticələr gözlədiyini söyləyib. Ümidvar olduğunu bildirib ki, münasibətlərin inkişafı baxımından itirilən 20 ili qarşıdakı iki ildə fəal işləməklə qaytarmaq mümkün olacaqdır.

Səfər çərçivəsində "Azərbaycan Respublikası Prezidentinin və Qırğız Respublikası Prezidentinin Birgə Bəyanatı", "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qeyri-qanuni dövriyyəsi ilə mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş", "Azərbaycan Respublikası və Qırğız Respublikası arasında Azərbaycan Respublikasının Dünya Ticarət Təşkilatına qəbul olunması üzrə Protokol", "Azərbaycan Respublikası Hökuməti və Qırğız Respublikası Hökuməti arasında vergi qanunvericiliyinə riayət edilməsi məsələləri üzrə əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş", "Azərbaycan Respublikası Hökuməti və Qırğız Respublikası Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş", "Azərbaycan Respublikası Hökuməti və Qırğız Respublikası Hökuməti arasında mülki müdafiə (mühafizə), fövqəladə halların qarşısının alınması və aradan qaldırılması sahəsində əməkdaşlıq haqqında Saziş" imzalanıb.

Bir sözlə, Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasındakı əlaqələr bir çox sahəni əhatə edir. Eyni zamanda, tərəflər arasındakı münasibətlər yüksələn xətlə inkişaf edir.

**Pərviz Sadayoğlu**